# Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindəndir



***Ölkəmizdə məqsədyönli şəkildə aparılan islahatlar mükəmməl və yeni dövlət idarəçilik siyasətinin formalaşmasında, respublikamızın mövqeyinin dünya birliyində möhkəmləndirilməsində və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsində mühüm rol oynayır. Bir çox beynəlxalq reytinq təşkilatları və reytinq jurnalları tərəfindən yayılan hesabatlarda da Azərbaycanın sürətlə inkişaf edən ölkə olduğu öz əksini tapıb. Bu günlərdə Amerikanın "U. S. News & World Report" jurnalının 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısında da Azərbaycanın 80 ölkə arasında 45-ci yerə layiq görülməsi, təbii ki, ölkəmizdə aparılan islahatların, daxili və xarici siyasətin, əldə olunan uğurların göstəricisidir. Bu faktlar Prezident İlham Əliyevin ilin yekunları ilə bağlı yerli jurnalistlərə verdiyi müsahibədə də öz əksini tapıb. Müsahibədə qeyd edildiyi kimi, son bir il ərzində bütün sahələr üzrə qazanılan uğurlar ölkəmizin sürətli inkişaf yolunda olmasından xəbər verir. Azərbaycan bir müstəqil ölkə olaraq, öz iqtisadiyyatını, siyasətini, ordu quruculuğunu, sosial siyasətini yüksək səviyyədə təşkil edib.***

### Bir il ərzində Azərbaycana 40-dan çox dövlət və hökumət başçısı səfər edib

2019-cu ildə xarici siyasət sahəsində görülmüş işlər barəsində məlumat verən dövlətimizin başçısı sona çatmaqda olan ilin ölkəmiz üçün uğurlu olduğunu bildirdi. İlk növbədə, qeyd etmək lazımdır ki, ilin əvvəlində qarşıya qoyulan bütün vəzifələr uğurla icra olunub. Bu da gələn il üçün nəzərdə tutulmuş layihə və dövlət proqramlarının yerinə yetirilməsinə zəmin yaradır. Bu inkişaf xarici siyasətdə də özünü büruzə verir. İri infrastruktur layihələrinin reallaşdırılması istiqamətində atılan qətiyyətli addımlar, beynəlxalq tədbirlərə evsahibliyi etmək, qarşılıqlı səfərlər və bu zaman imzalanan sənədlər ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayını daha da artırıb.

Son illər ölkəmizin tərəfdaşlıq etdiyi dövlətlərlə əlaqələri daha yüksək səviyyəyə qalxıb. Bu sırada qonşu ölkələrlə bir çox birgə təşəbbüslərin irəli sürülməsi, önəmli razılaşmaların əldə edilməsi də diqqətə çatdırılmalıdır. Dövlətimizin başçısı bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərini bildirdiyini dedi: "Qonşu ölkələrlə münasibətlər hesab edirəm ki, bütövlükdə, hər bir ölkə üçün xüsusi məna daşıyır, o cümlədən Azərbaycan üçün. Mən çox məmnunam ki, son illər ərzində qonşu ölkələrlə bizim əlaqələrimiz inkişaf edir. Bu əlaqələr qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və bir-birinin işinə qarışmama prinsipləri əsasında qurulubdur. Mənim qonşu ölkələrin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərim olub və hər bir görüş məhsuldar olub. Ona görə hesab edirəm ki, bu istiqamətdə atılmış addımlar və tərəfdaşlarımızın addımları bu əlaqələri gücləndirib, eyni zamanda, regional əməkdaşlığa da müsbət təsir göstərib".

Artıq Azərbaycanın təşəbbüsü ilə qonşu ölkələrlə üçtərəfli əməkdaşlıq formatı var. Bu, çox önəmli, yeni geosiyasi təşəbbüsdür. Üçtərəfli əməkdaşlıq regionda sülhün, təhlükəsizliyin, sabitliyin təmin olunmasına xidmət edir. Bu format iqtisadi əməkdaşlıq, energetika, nəqliyyat sektorlarında xalqlarımızın rifahının yaxşılaşmasını təmin edir. Böyük potensiala malik olan Azərbaycan – İran -- Rusiya üçtərəfli əməkdaşlıq formatı bunun əyani təzahürüdür.

Bu gün Azərbaycanın mehriban qonşuluq nümunəsi göstərdiyini diqqətə çatdıran dövlətimizin başçısı əsası ölkəmiz tərəfindən qoyulan üçtərəfli formatın beynəlxalq aləmdə özünə layiq yer tutacağına əminliyini bildirdi. Son hadisələr də göstərir ki, respublikamız başqa ölkələrlə ikitərəfli əlaqələrin inkişafını dövlət siyasətinin prioriteti hesab edir. Bunu son bir il ərzində Azərbaycana 40-dan çox dövlət və hökumət başçısının səfər etməsi də təsdiqləyir. Həm beynəlxalq tədbirlərdə iştirak etmək , həm də ikitərəfli formatda əməkdaşlığı daha da möhkəmləndirmək üçün dövlət və hökumət başçılarının bu il çoxsaylı səfərləri xarici siyasətimizin uğuru, respublikamızın dünyada artan reytinqinin göstəricisidir.

### Beynəlxalq tədbirlər məkanı

Azərbaycan dünyada artıq beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi tanınır. Dövlətimizin başçısı jurnalistlərin suallarını cavablandırarkən bu barədə ətraflı məlumat verdi. Dedi ki, bu il ölkəmizdə önəmli beynəlxalq tədbirlər keçirilib. Onların arasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşünü qeyd etmək olar. Azərbaycanın bu təşkilatda çox fəal rol oynadığını diqqətə çatdıran Prezident təşkilata sədrliyin ölkəmizə keçdiyini bildirdi: "Biz bu təşkilata bir il ərzində sədrlik edəcəyik. Eyni zamanda, Qoşulmama Hərakatının Zirvə görüşü Azərbaycanda keçirilibdir. Azərbaycan BMT-dən sonra ikinci böyük beynəlxalq təsisata 120 ölkənin yekdil qərarı ilə 3 il ərzində sədrlik edəcəkdir. Qeyd etdiyim kimi, bizim sədrliyimiz yekdil qərarla qəbul olunub. Bunun çox böyük mənası var. Çünki Qoşulmama Hərəkatında birləşən ölkələrin arasında bəzi ixtilaflar var, qarşıdurma da var, anlaşılmazlıq da var. Bəzi ölkələr bir-biri ilə, sadə dildə desək, yola getmirlər. Belə olan halda, bütün dövlətlər tərəfindən bizə göstərilən dəstək, əlbəttə ki, bizim siyasətimizi əks etdirir, onu göstərir ki, Azərbaycana çox böyük hörmət və böyük rəğbət var".

Məlum olduğu kimi, Azərbaycan üç il ərzində bu təsisata sədrlik edəcək və həmin sədrlik formal xarakter daşımayacaq. Dövlətimizin başçısı bu təsisatın dünyadakı rolunun artırılmasında bütün imkanlardan istifadə ediləcəyini, Azərbaycanın öz sədrliyi dövründə bir neçə önəmli təşəbbüslə çıxış edəcəyini də diqqətə çatdırdı. Bu təşəbbüslərin əsas mahiyyətini açıqlayan ölkə başçısı "dünyada beynəlxalq əməkdaşlıq yeni pilləyə qalxsın və ölkələr arasında, o cümlədən sivilizasiyalararası məsələlər sağlam təməl üzərində öz həllini tapsın", – deməklə qarşıya qoyulan prioritet vəzifələrin nədən ibarət olacağını vurğuladı.

Bu il Avropa İttifaqı ilə əlaqələrimizin uğurla inkişaf etdiyini diqqətə çatdıran Prezident il ərzində bir neçə önəmli tədbirin keçirildiyini, o cümlədən Avropa İttifaqı Şurasının prezidenti cənab Tuskun iyul ayında Azərbaycana səfərini xatırlatdı və bunun xüsusi məna daşıdığını dedi: "Avropa İttifaqı ilə bizim əlaqələrimiz bu il müsbət istiqamətdə inkişaf edibdir. Onu da bildirməliyəm ki, keçən il Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq prioritetləri adlı sənəd paraflanmışdır. Bu sənəddə ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına Avropa İttifaqı tərəfindən dəstək ifadə edilmişdir. Eyni zamanda, Qoşulmama Hərəkatının Yekun Bəyannaməsində Ermənistan -- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipləri əsasında həll olunması ilə bağlı açıq ifadələr öz əksini tapıbdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının da Yekun Bəyannaməsində buna oxşar bənd öz əksini tapıbdır".

Qoşulmama Hərəkatında birləşən 120 ölkə, Avropa İttifaqına üzv olan 28 ölkə, eyni zamanda, Qoşulmama Hərəkatına üzv olmayan türkdilli dövlətlər, ümumilikdə beynəlxalq aləmin mütləq əksəriyyətinin ölkəmizin haqq işini dəstəkləməsi xarici siyasətimizin uğurlarıdır. Xalqımızın ən yaralı yeri olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində dövlət başçımızın mövqeyinin dəstəklənməsi, münaqişənin həllinin ərazi bütövlüyü çərçivəsində görmələrini bəyan etmələri çevik və düşünülmüş xarici siyasət istiqamətində yaddaqalan əsas məsələlərdir.

### Ermənistanın qeyri-konstruktiv mövqeyi dəyişmir

Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında, dövlətlərin ərazi bütövlüyü çərçivəsində həlli dövlət başçısının həyata keçirdiyi siyasi kursun priotitetini təşkil edir. Jurnalistin Ermənistan -- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinin nə yerdə olması ilə bağlı verdiyi sualı cavablandıran dövlətimizin başçısı 2019-cu ilin danışıqlar prosesi üçün itirilmiş il olduğunu bildirdi və bunun da yeganə səbəbinin Ermənistan rəhbərliyinin bu danışıqlarda qeyri-konstruktiv mövqe sərgiləməsi, beynəlxalq vasitəçilərin işğalçı ölkəyə lazımi təsir və təzyiq göstərməməsi olduğunu dedi. Məhz bu səbəbə görə də 2019-cu ildə danışıqlar trekində hər hansı bir ciddi irəliləyişin əldə olunmadığı diqqətə çatdırıldı.

Ermənistan rəhbərliyinin ziddiyyətli və bir-birini təkzib edən bəyanatlarının həm təəccüb, həm də təəssüf doğurduğunu vurğulayan ölkə Prezidenti işğalçı ölkənin yeni rəhbərliyinin ilkin mərhələdə Azərbaycanın Dağlıq Qarabağla danışıqlar aparması kimi yanlış məsələni ortaya atdığını bildirdi. Guya, Dağlıq Qarabağ "müstəqil dövlətdir" və Ermənistan bu "müstəqil dövlət"in işlərinə qarışa bilmir: "Bunların hamısı cəfəng fikirlərdir. Çünki bu gün Dağlıq Qarabağda yerləşən hərbi birləşmənin 90 faizi Ermənistan vətəndaşlarından təşkil edilir. Hər il Ermənistan büdcəsindən Dağlıq Qarabağ büdcəsinə böyük vəsait transfert edilir. Ona görə buna müstəqil dövlət demək tam yalandır. Sadəcə olaraq, danışıqları uzatmaq, yaxud da ki, öz məsuliyyətini boynundan atmaq üçün belə ifadələr işlədilir. Biz qətiyyən bu ifadələrlə razı ola bilmərik. Öz fikirlərimizi bildirmişik və eyni zamanda, Minsk qrupunun həmsədr ölkələrinin səfirləri də oxşar bəyanatlar vermişlər. Danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Bu il önəmli hadisələrdən biri də odur ki, danışıqlar formatı dəyişməz olaraq qaldı. Hesab edirəm ki, bu, bizim diplomatik nailiyyətimizdir. Yəni, Ermənistan rəhbərliyinin cəhdləri və təklifləri qəbul edilmədi".

Dövlətimizin başçısı Ermənistan tərəfindən "Azərbaycan "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır" -- fikri baş tutmayandan sonra növbəti bir cəfəng tezis ortaya atıldığını vurğuladı, Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" sərsəm fikrini xatırlatdı, bunun növbəti yalan olduğunu dedi. Bunu Qarabağın müstəqil ölkə olmaması, bu vaxta qədər hər hansı bir ölkə tərəfindən "müstəqilliyinin" tanınması ilə əlaqələndirdi. Dedi ki, böyük beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar və yekun bəyannamələr onu göstərir ki, dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və Qarabağ Ermənistan deyil və bunu sübut etmək üçün heç səy göstərmək də lazım deyil: "Ona görə birinci dəfə də, ikinci dəfə də yalan söyləniIdi. Amma həqiqət ondan ibarətdir ki, -- mən bunu canlı efirdə demişəm, -- Qarabağ Azərbaycandır və nida işarəsi. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bizim danışıqlar prosesində mövqeyimizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Tarixi həqiqət bizim tərəfimizdədir. Biz bunu dünyaya sübut edə bilmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb".

### İlin uğurlu yekunu

Prezident İlham Əliyevin yerli jurnalistlərə verdiyi müsahibəsində səslənədiyi faktlar bir daha təsdiqlədi ki, 2019- cu il uğurlu il kimi yadda qalacaq. Qeyq etdi ki, bu il qeyri –neft iqtisadiyyatı 3,5 faiz, qeyri-neft sənayesi 14 faiz, kənd təsərrüfatı 7 faiz, qeyri-neft ixracı 14 faiz artıb. On bir ayda inflyasiya 2,6 faiz olub. Bu il ölkəmizin valyuta ehtiyatları 4,5 milyard dollar artaraq 50 milyard dollara çatıb.

Dünyanı iqtisadi böhran bürüsə də, Azərbaycan bütün sosial öhdəlikləri yerinə yetirib. Aparılan islahatlar nəticəsində əldə olunmuş 1 milyard manat vəsait sosial layihələrə yönəldilib. Problemli kreditlər vətəndaşlar üçün ən məqbul variantda həllini tapıb. Müavinətlər 50 faiz, yaxud da 2 dəfə, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı. Bu il məcburi köçkünlər üçün 5 mindən çox ev və mənzil inşa edilib. 7 mindən çox şəhid ailəsinə dövlət tərəfindən mənzil, 6 mindən çox müharibə əlilinə maşın verilib.

Enerji siyasəti, qlobal enerji layihələri ötən illərdən xeyli fərqlənib. TANAP layihəsinin istismara verilməsi tarixi hadisədir. Bununla yanaşı, mövcud olan nəqliyyat infrastrukturundan səmərəli istifadə edildi.

Müsahibədə diqqətçəkən məqamlardan biri də Azərbaycanda bütün sahələri əhatə edən islahatlar arasında kadr və struktur islahatlarının xüsusi bir yer tutması barədə deyilənlər oldu. Dövlətimizin başçısı bu ilin həmin sahədə görülmüş işlərlə yaddaqalan olduğunu dedi: "Kadr və struktur islahatları, əslində, bir-birini tamamlayan islahatlardır. Bu, ümumi islahatlar siyasətinin təzahürüdür. İslahatlar müxtəlif dövrlərdə, müxtəlif templə və səmərə ilə həyata keçirilib. Keçənilki prezident seçkilərindən sonra mənim andiçmə mərasimimdəki çıxışımda islahatların yeni mərhələsi elan edildi və biz bu islahatları ardıcıl şəkildə reallaşdırmağa başladıq, o cümlədən kadr islahatları ilə bağlı olan məsələlər öz həllini tapdı. Yeni hökumətdə müasir dünyagörüşünə malik olan gənc, eyni zamanda, təcrübəli kadrlar təmsil olundular və biz onların rəhbərlik etdikləri sahələrdə islahatların artıq yaxşı nəticələrini görməyə başladıq. Builki sosial-iqtisadi göstəricilərin artımı onu göstərir ki, Prezident tərəfindən verilən tapşırıqlar yerinə yetirilir".

Dövlətimizin başçısı gələn il fevralın 9-da keçiriləcək parlament seçkilərindən də danışdı. Bildirdi ki, parlament seçkiləri cəmiyyət tərəfindən, o cümlədən siyasi partiyalar tərəfindən müsbət qiymətləndirilir. Ölkə Prezidenti respublikamızda parlament seçkilərinin şəffaf keçiriləcəyinə, Azərbaycan xalqının öz iradəsini göstərəcəyinə, nəticələrin xalqın iradəsini əks etdirəcəyinə və layiqli nümayəndələrin seçiləcəyinə əminliyini bildirdi.

**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**